**Xeyransa Abbasova,**
*Nəşriyyat işləri şöbəsinin müdiri*

*Kitab nəşri hər bir ölkənin, xalqın mədəniyyətində, ümumiyyətlə, mənəvi, ictimai həyatında çox görkəmli yer tutur. Hər birimiz ilk növbədə ancaq kitab vasitəsilə təhsil almışıq, həyatda yaşamağa, fəaliyyət göstərməyə hazırlaşmışıq. Ona görə də hər birimiz kitablara borcluyuq. Həm kitabları yazıbyaratmaq, həm də onları nəşr etmək əsas vəzifələrimizdən biridir. Bunun üçün mümkün olan bütün tədbirləri görməliyik!*

*Heydər Əliyev*
*Azərbaycan Respublikasının Ümummilli lideri*

# MİLLİ KİTABXANANIN NƏŞRİYYAT FƏALİYYƏTİNƏ DAİR

***Xülasə:*** *Məqalədə Nəşriyyat işləri şöbəsi tərəfindən hazırlanaraq çap olunmuş materiallardan bəhs olunur. Qeyd etmək lazımdır ki, nəşriyyat işi milli mədəniyyətin ən vacib sahəsidir. Nəşriyyatlar tarixən insanlara, daha geniş mənada cəmiyyətə xidmət edir. Elm, təhsil və mədəniyyətin inkişafına xidmət edən nəşriyyatlar çap etdikləri müxtəlif növ və tipli ədəbiyyatlarla cəmiyyətin tərbiyəsi və əxlaqının formalaşmasında, dünyagörüşünün zənginləşməsində böyük rol oynayır.*

***Abstract:*** *The article talks about the materials prepared and printed by the Department of Publishing. It should be noted that publishing is the most important area of national culture. Publishing houses have historically served people, and society more broadly. Publishers that serve the development of science, education and culture play a major role in the formation of society's education and morals, and in the enrichment of worldview with the different types and types of literature they print.*

***Резюме:*** *В статье говорится о материалах, подготовленных и опубликованных издательским отделом. Следует отметить, что издательское дело является важнейшей областью национальной культуры. Книжные издательства испокон веков служили людям и обществу в целом. Они способствовали всестороннему развитию науки, образования и просвещения, а разнообразная литература, публикуемая ими, расширяла кругозор населения, играла важную роль в формировании высоконравственного и интеллектуально развитого общества.*

***Açar sözlər:*** *Milli Kitabxana, nəşriyyat işi, biblioqrafik göstərici, seriyalı nəşr, elmi əsər, not məcmuələri.*

***Key words:*** *National Library, publishing work, bibliographic index, serial publication, scientific work, collections of notes.*

***Ключевые слова:*** *Национальная Библиотека, издательское дело, библиографические указатели, сериальные издания, научные издания, нотные сборники.*

Kitabın mövcudluğu qeyri-adi, mürəkkəb ictimai və mədəni hadisədir. Onda fikir və söz, elm və incəsənət, hər bir insanın və bütöv cəmiyyətin mənəvi aləmi əks olunur. Bəşəriyyətin yaratmış olduğu ən böyük xarüqələrdən biri kitabdır. Kitab təbiəti, cəmiyyəti və insan təfəkkürünü əks etdirən zəngin bir aləmdir. Təbiət, cəmiyyət və insanlar daha çox kitablar vasitəsilə əlaqələnir, formalaşır, inkişaf edir.

Azərbaycan Respublikasının Milli Kitabxanası Azərbaycanda kitabxana işi sahəsində dövlət siyasətini həyata keçirən, milli nəşrləri, xarici ölkələrdə Azərbaycan haqqında nəşr olunmuş çap məhsullarını və Azərbaycan müəlliflərinin əsərlərini, dünya əhəmiyyətli nəşrləri, o cümlədən xarici dillərdə çap olunmuş məlumat daşıyıcılarını toplayıb mühafizə edən milli xəzinə və dövlət kitabsaxlayıcısıdır. Milli Kitabxana öz fəaliyyətində Azərbaycan Respublikası Konstitusiyasını, "Mədəniyyət haqqında" və Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə 1999-cu ildə ölkəmizin tarixində ilk dəfə qəbul olunan "Kitabxana işi haqqında Azərbaycan Respublikasının Qanunu", 2000-ci ildə isə "Nəşriyyat işi haqqında Azərbaycan Respublikasının Qanunu", eləcə də, digər qanunvericilik aktlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Mədəniyyət Nazirliyinin əmrlərini rəhbər tutur.

M.F.Axundov adına Milli Kitabxana milli çap məhsullarının arxiv fondunun yaradılması və milli biblioqrafiya vəsaitlərinin tərtibi funksiyasını da müvəffəqiyyətlə yerinə yetirir.

Milli Kitabxanada nəşr edilən vəsaitlər mütəmadi olaraq respublikada fəaliyyət göstərən kitabxanalara göndərilir. Eləcə də, kitabxananın elektron saytında yerləşdirilir. Beləliklə, hər bir kitabxanaçı və oxucu zaman və məkan maneəsi olmadan kitabxananın bütün nəşrləri ilə tanış ola bilərlər. Hətta "Mədəniyyət, incəsənət, bədii ədəbiyyat və ədəbiyyatşünaslıq haqqında yeni ədəbiyyat" cari biblioqrafik göstəricisində məqalələrin tam mətni ilə də tanış olmaq mümkündür.

Kitabxananın elektron ünvanında "Nəşrlərimiz" düyməsi nəşriyyat fəaliyyətini əyani surətdə nümayiş etdirir. Nəşriyyat işləri şöbəsində eyni zamanda müvafiq kompyuter texnologiyaları vasitələri ilə kitabxanada keçirilən

çoxsaylı tədbirlərin, böyük beynəlxalq konfransların təşkilində lazım olan nəşriyyat məhsulları – dəvətnamələr, konfrans proqramları, afişalar, kitabların üz qabıqlarının dizaynı da hazırlanır. Azərbaycan xalqının milli mədəni sərvətinin toplandığı, "mənəviyyat, bilik, zəka mənbəyi" olan bu müqəddəs yer 100 ildir ki, xalqın xidmətindədir. Fəaliyyət göstərdiyi bütün dövrlərdə öz işinin öhdəsindən gələn Milli Kitabxana hal-hazırda nəzərəçarpacaq dərəcədə uğurlara imza atır. Heç şübhəsiz ki, belə dinamik, sürətli inkişaf gələcək uğurlar üçün təməldir.

M.F.Axundov Adına Milli Kitabxananın Nəşriyyat işləri şöbəsi öz fəaliyyətini 30 may 2000-ci ildə Ulu Öndərimiz Heydər Əliyev tərəfindən təsdiq edilmiş "Nəşriyyat işi haqqında Azərbaycan Respublikasının Qanunu"na və digər qanunvericilik aktlarına istinad edərək aparır və gündəlik fəaliyyətində bu qanunların tələblərini əsas götürür.

Milli Kitabxana hər il kitabxana işinin bu və ya başqa məsələlərinə dair xeyli miqdarda vəsait nəşr edir və kitabxanalara göndərir. Bunların arasında ötən əsrin 60-70-ci illərində çap olunan və müəyyən səbəblərdən uzun müddət çap olunmayan *"Əlamətdar və tarixi günlər təqvimi"*ni xüsusilə qeyd etmək lazımdır. "Əlamətdar və tarixi günlər təqvimi" il ərzində yubileyi qeyd olunacaq müəyyən əlamətdar hadisələr və həmin hadisələrə aid məlumatlarla bağlı günlərin seçmə siyahısından ibarət illik təqvimdir. Təqvimə milli və dünya ədəbiyyatının, incəsənətin, elmin, texnikanın və müxtəlif elm sahələrinin ən görkəmli nümayəndələri, Azərbaycan Respublikasının, keçmiş SSRİ-nin fəxri adlarına layiq görülmüş, həmçinin mədəniyyət, incəsənət, ədəbiyyat və elm sahələrində mühüm xidmətləri olan, elmi və yaradıcılıq fəaliyyəti göstərən insanlar haqqında, mədəniyyətlə bağlı milli və beynəlxalq günlər, peşə bayramları və digər mühüm məlumatlar daxil edilir.

2015-ci ildən "Əlamətdar və tarixi günlər təqvimi" Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi tərəfindən nazirliyin aparatının struktur bölmələrinin və bütün mədəniyyət müəssisələrinin rəhbərləri üçün tövsiyə olunmuşdur.

Mədəniyyət işçiləri, müəllimlər, ziyalılar, kütləvi informasiya vasitələri və əsasən də kitabxana işçiləri üçün nəzərdə tutulan bu vəsaitin builki buraxılışı ***"Heydər Əliyev İli"***nə həsr olunmuşdur. Ölkə başçısı Azərbaycan xalqının Ümummilli Lideri, müstəqil Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 illiyinin tamam olması münasibətilə 2023-cü ili Azərbaycan Respublikasında "Heydər Əliyev İli" elan etmişdir. Təqvimdə Ulu Öndərin həyat və fəaliyyəti, mədəniyyətimizə və Milli Kitabxanaya böyük diqqət və qayğısını əks etdirən zəngin məlumatlar öz əksini tapmışdır.

Qeyd etmək lazımdır ki, bu il eyni zamanda Azərbaycan Milli Kitabxanasının 100 illik yubileyi də qeyd ediləcəkdir. Elm və mədəniyyətə yüksək qiymət verən Ulu Öndər Heydər Əliyev 4 dəfə (1995 – 6 iyul; 1996 – 4 mart; 1997 – 5, 20 noyabr) Milli Kitabxanaya gəlmiş və öz şəxsi kitabxanasından yüzlərlə kitabı bu elm məbədinə hədiyyə etmişdir.

1960-cı ildən nəşr edilən *"Birillik Azərbaycan kitabiyyatı"* il ərzində dilindən, mövzusundan, janrından asılı olmayaraq respublikada nəşr edilmiş bütün kitablar barəsində tam biblioqrafik məlumat verir. "Birillik Azərbaycan kitabiyyatı"nda materialların ayrı-ayrı elm sahələri üzrə qruplaşdırılması respublikada nəşr edilən kitab məhsulunun tərkibi, mövzu əhatəliliyi barədə müxtəlif aspektli informasiya əldə etməyə imkan yaradır. Uzun illər ərzində bu vəsaitlər kitabxanaçılar, biblioqraflar və ən müxtəlif tələbatçı qrupları tərəfindən geniş istifadə edilir. Həmin vəsaitə nəinki respublikamızda, həm də onun hüdudlarından kənarda böyük tələbat vardır. 2005-ci ildə M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası Azərbaycan Dövlət Kitab Palatasının ləğvindən sonra yarımçıq qalmış milli biblioqrafiya vəsaitlərinin nəşri işini yenidən bərpa etmiş, kitabxana həmin ilin iyun ayından digər milli biblioqrafiya vəsaitləri kimi, "Birillik Azərbaycan kitabiyyatı"nı da nəşr etməyə başlamışdır.

Milli Kitabxana 2006-cı ildən öz fonduna daxil olan yeni ədəbiyyatın cari biblioqrafik göstəricilərini tərtib etməyə başlamışdır. *"Yeni kitablar"* adlı cari biblioqrafik informasiya göstəricisi hər rübdə bir dəfə nəşr olunur və həmin dövr ərzində Milli Kitabxananın fonduna daxil olan bütün yeni ədəbiyyat orada öz əksini tapır. Burada Azərbaycan, rus və digər xarici dillərdə olan bütün nəşrlər əhatə olunur. Materiallar elm sahələri üzrə qruplaşdırılır və oxucuların istifadəsini asanlaşdırmaq məqsədilə hər bir kitabın şifrələri verilir.

2006-cı ildə *"Mədəniyyət, incəsənət və turizm haqqında yeni ədəbiyyat"* adlı cari biblioqrafik informasiya göstəricisi hazırlayaraq çap etməyə başlamışdır. Vəsaitin tərtib olunmasında məqsəd nazirliyin, onun strukturunda olan kitabxana, muzey, teatr və digər idarə-müəssisələrin rəhbər işçilərinə, aparıcı mütəxəssislərə dövri mətbuatda müvafiq mövzular üzrə Azərbaycan və rus dillərində dərc edilən məqalələr haqqında operativ məlumat verməkdir. Oxucu təklifləri nəzərə alınaraq vəsaitin tərkibi genişləndirilmiş, müxtəlif sahələr əlavə olunmuş və vəsait "Mədəniyyət, incəsənət, turizm, bədii ədəbiyyat və ədəbiyyatşünaslıq haqqında yeni ədəbiyyat. Cari biblioqrafik informasiya göstəricisi" adlandırılmışdır. Hazırda vəsait "Mədəniyyət, incəsənət, bədii ədəbiyyat və ədəbiyyatşünaslıq haqqında yeni ədəbiyyat" adı ilə çap olunur.

Azərbaycan Milli Kitabxanasının *"Azərbaycanın görkəmli şəxsiyyətləri"* seriyasından nəşr edilən şəxsi biblioqrafik göstəriciləri də dəyərli informasiya mənbələri kimi mühüm əhəmiyyət daşıyır. Belə ki, hər bir göstəricinin daxili

strukturu elə qurulur ki, burada biblioqrafiyaya yazılmış ön söz, görkəmli şəxs haqqında söylənilmiş fikirlər, həyat və fəaliyyətinin əsas tarixləri, həmin şəxsin əsərləri, onun haqqında olan kitablar, dissertasiya və avtoreferatlar, dövri mətbuatda dərc edilən məqalələr, köməkçi göstəricilər, əlavələr və s. öz əksini tapır. Bu bölmələr oxucuya daha artıq informasiya verir və biblioqrafiyanın sanbalını artırır. Biblioqrafiyalar Azərbaycan və digər xarici dillərində tərtib olunur. Milli Kitabxana tərəfindən tərtib olunaraq nəşr edilən göstəricilərdən "Nizami Gəncəvi", "İmadəddin Nəsimi", "Heydər Əliyev", "Mir Cəlal", "Zərifə Əliyeva", "Aida İmanquliyeva", "Cəlil Məmmədquluzadə", "Elçin", "Əli Vəliyev", "Əhməd Cavad", "Nəriman Nərimanov", "Akademik Mirzə İbrahimov", "Əzizə Cəfərzadə", "Hüseyn Abbaszadə", "Hüseyn Cavid", "Xurşidbanu Natəvan", "Lütfi Zadə – 100", "Mikayıl Abdullayev", "Sabir Rüstəmxanlı", "Vilayət Quliyev", "Aşıq Ələsgər", "Əbdürrəhim bəy Haqverdiyev", "Məhəmməd Hadi", "İsmayıl Şıxlı", "Akademik İsa Həbibbəyli" və başqa biblioqrafiyaları göstərmək olar.

2020-ci il 8 noyabr Azərbaycan xalqının tarixinə "Zəfər günü" kimi daxil oldu. Şuşa şəhəri azad edildikdən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2021-ci il may ayının 7-də "Şuşa şəhərinin Azərbaycanın mədəniyyət paytaxtı elan edilməsi" və 2022-ci il 5 yanvar "Şuşa İli" elan edilməsi haqqında Sərəncamlar imzalamışdır. Dövlət başçımızın imzaladığı bu tarixi sənədlərin icrasını təmin etmək məqsədilə M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası "Şuşa – Azərbaycanın mədəniyyət paytaxtı", "Şuşa tarixi mənbələrdə" adlı fundamental biblioqrafiyaları və "Şuşa ABŞ və Böyük Britaniya mətbuatında: 1827-1915-ci illərə aid qəzet materialları əsasında" adlı kitabı nəşr etdirmişdir.

Milli Kitabxana Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi ilə birgə 2019-cu ildən başlayaraq "Milli Musiqi xəzinəmizdən (Azərbaycan Milli Kitabxanasının fondundan)" adlı layihə həyata keçirir. Kitabxana görkəmli Azərbaycan bəstəkarlarının ötən əsrin 50-80-ci illərində çap olunan və hazırda Azərbaycan Milli Kitabxanasının Arxiv Fondunda mühafizə olunan nadir not məcmuələrini yenidən nəşr edərək mütəxəssislərin, musiqi və incəsənət məktəblərinin müəllimlərinin və şagirdlərinin istifadəsinə təqdim edir.

Bu günədək həmin layihədən görkəmli Azərbaycan bəstəkarları Üzeyir Hacıbəyovun, Qara Qarayevin, Fikrət Əmirovun, Niyazinin, Asəf Zeynallının, Süleyman Ələsgərovun, Əfrasiyab Bədəlbəylinin, Arif Məlikovun, Əşrəf Abbasovun, Emin Sabitoğlunun, Rauf Hacıyevin, Azər Rzayevin, Cövdət Hacıyevin, Soltan Hacıbəyovun, Oqtay Rəcəbovun, Ağabacı Rzayevanın, Sevda İbrahimovanın və başqalarının fortepiano üçün not əsərləri ayrı-ayrı məcmuələr şəklində nəşr olunaraq musiqi ictimaiyyətinə təqdim olunmuşdur.

Eyni zamanda Milli kitabxana tərəfindən görkəmli musiqi xadimlərinə həsr olunmuş "Üzeyir Hacıbəyli", "Qara Qarayev", "Niyazi", "Bülbül", "Fikrət Əmirov", "Rəşid Behbudov", "Xan Şuşinski", "Emin Sabitoğlu", "Hacıyev Rauf – 100" adlı fundamental biblioqrafiyalar da çap olunmuşdur.

Azərbaycan Milli Kitabxanasının nəşləri içərisində "Elmi Əsərlər" jurnalı da xüsusi yer tutur. İldə 1 dəfə çapı nəzərdə tutulan dövri nəşr respublikamızda kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq və kitabşünaslıq sahəsində elmi-tədqiqat işinin genişlənməsinə, kitabxana işi proseslərini bir-biri ilə qarşılıqlı əlaqədə olan bir sistem kimi öyrənməyə, kitabxanaların iş təcrübəsini müasir elmi üsullarla tədqiq edib ümumiləşdirməyə səbəb olacaq, əks etdirdiyi maraqlı və aktual materialları ilə bu elmin inkişafına təkan verəcəkdir.

Azərbaycan xalqının mədəni, elmi, siyasi səviyyəsinin yüksəlməsində Azərbaycan kitabı böyük əhəmiyyətə malikdir. Əlbəttə, Azərbaycan kitabının yaradılması nəşriyyat prosesindən keçir və hər bir kitabın nəşri müəyyən məqsəd və vəzifəni yerinə yetirir. Əsərin nəşriyyat-redaksiya prosesində formalaşması, çapdan buraxılması nəşriyyat fəaliyyəti ilə əlaqədardır. Kitab həmçinin Azərbaycançılıq milli ideologiyasının, dövlətçiliyin fəlsəfi konsepsiyasının, multikulturalizm ideyalarının təbliğində mühüm ideoloji vasitədir.

Ulu Öndər Heydər Əliyevin Azərbaycançılıq fəlsəfəsi konsepsiyasına əsaslanmaqla müstəqil dövlətimizin kitabxanaçılıq və kitabçılıq siyasəti formalaşdı, bu sahə mədəni quruculuğun tərkib hissəsi kimi dövlətimizin qayğısı nəticəsində uğurlu inkişaf yoluna qədəm qoydu.

Ötən müddətdə, M.F.Axundov Adına Milli Kitabxana tərəfindən "Əlamətdar və tarixi günlər təqvimi", "Birillik Azərbaycan kitabiyyatı", "Yeni kitablar", "Mədəniyyət, incəsənət, bədii ədəbiyyat və ədəbiyyatşünaslıq haqqında yeni ədəbiyyat", "Azərbaycanın görkəmli şəxsiyyətləri" seriyasından yüzlərlə biblioqrafiyalar, "Milli Musiqi xəzinəmizdən (Azərbaycan Milli Kitabxanasının fondundan)" layihəsi ilə not məcmuələri və "Elmi Əsərlər" jurnalı nəşr olundu.

Getdikcə daha da inkişaf edən nəşriyyat fəaliyyəti kitabxananın digər sahələrindən geri qalmır. Hələ neçə-neçə dəyərli əsərlərin çap edilməsi planlaşdırılır.

## ƏDƏBİYYAT

**1.** Azərbaycan Milli Kitabxanasının və Azərbaycan Respublikası Elmi-Sahəvi Kitabxanasının nümunəvi əsasnamələrinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər kabinetinin qərarı. URL: https://e-qanun.az/framework/865

**2.** İsmayılova, Ə. Bir əsr xalqın xidmətinə /Ədibə İsmayılova //Azərbaycan.- 2023.- 23 may.- S.12.

**3.** Məmmədli, N. Nəşriyyat işi: bu gün və sabah /N.Məmmədli; müsahibəni apardı: L.Abbasova //Ədalət.- 2019.- 14 mart.- S.5;7.

**4.** "Nəşriyyat işi haqqında" Azərbaycan Respublikasının Qanunu. URL: https://e-qanun.az/framework/115

**5.** Nəşriyyat işi yeni mərhələdə //Mədəniyyət.- 2009.- 3 iyul.- S.5.

**6.** Tahirov, K. Xalqımızın ən zəngin elm, bilik məbədgahı: Milli Kitabxana-100 /Kərim Tahirov; müsahibəni apardı: Ə.Nəcəfxanlı //Xalq qəzeti.- 2023.- 26 iyun.- S.12.